# ÜSTÜN CƏHƏTLƏRƏ GÖRƏ VƏZIFƏYƏ TƏYIN ETMƏK

---

<"xml encoding="UTF-8?>

ÜSTÜN CƏHƏTLƏRƏ GÖRƏ VƏZIFƏYƏ TƏYIN ETMƏK

Ömər ibni Əbi Sələmə Ümmü Sələmənin oğlu (Rəsulullahın) həyat yoldaşı idi Cəfəri Təyyarın atası o vaxt onunla Həbəşəyə mühacirət etdikdə dünyadan getdi və bu hadisədən sonra Peyğəmbər səlləllahu əleyhi və alihi və səlləm onun anası ilə evləndi. Bu adam Əli (əleyhissalam)-ın onu Bəhreyn və Farsın hakimi təyin etdiyi ləyaqətli bir şəxs idi. Digər tərəfdən də qüdrətli şair və Ənsarın söz ustadlarından sayılan No”man ibni Əclan özünün gözəl şerləri ilə nübüvvət xanidanını himayə etməyə qalxdı.

İmam Əli (əleyhissalam) üstünlük qanunla-rına riayət əsasında Ömər ibni Əbi Sələmə ni vəzifəsini layiqincə yerinə yetirəndən sonra geri çağıraraq No”man ibni Əclanı onun yerinə təyin etdi, çünki Siffeyn müharibəsi davam edirdi və Ömər ibni Əbi Sələmənin vücudu onun həm Qüreyşin böyüklərindən, həm də İslamda gözəl keçmişə malik olan şəxsiyyətlərindən sayıldığına görə orada daha çox lazım idi. İmam Ömər ibni Sələməyə aşağıdakı məzmunda bir sifariş göndərdi:

“Mən No”man ibni Əclanı Bəhreynin valisi təyin edərək sənin ixtiyarını oranın valiliyindən geri çağırdı. Sən orada öz rəhbərliyini çox gözəl yerinə yetirərək əmanət haqqını düşzgün riayət etdin. Belə ki, heç bir sui-zənnə səbəb olmadın tez özünü mənə çatdır çünki qərara almışam Şam tələbkarlarına doğru hərəkət edəm. Mənimlə yoldaş olmağını çox istərdim. Çünki sən elə adamlardansan ki, həmişə düşmənlə döyüşdə və İslamın əsasını bərpa etməkdə bizlərə kömək ”.etmisən və sən bu işlərə layiqsən. İnşallah